# AZƏRBAYCANDA KİTABXANALARIN FƏALİYYƏTİNİN YAXŞILAŞDIRILMASI İSTİQAMƏTİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

***Həcər Aslan qızı Atakişiyeva***

*AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu,*
*böyük laborant*
*Səbail rayonu, İstiqlaliyyət küç.26*
*heceratakisiyeva1@gmail.com*

***Açar sözlər:*** *Azərbaycan ədəbiyyatı, Azərbaycan mədəniyyəti, Heydər Əliyev, kitab, kitabxana, kitabxanaçılıq*

***Ключевые слова:*** *Азербайджанская литература, азербайджанская культура, Гейдар Алиев, книга, библиотека, библиотечное дело*

***Keywords: Azerbaijani literature,*** *Azerbaijani culture, Heydar Aliyev, book, library, librarianship*

**Xülasə:** Ulu öndərin kitabxana fondunun səmərəliliyini artırmaq və təkmilləşdirmək məqsədilə fondun komplektləşdirilməsi istiqamətində atdığı addımlar mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda kitabxana fondunun uzun müddət istifadə səmərəliliyini təmin edən əsas amillərdən biri də kitabxana fondunun təşkilində bir çox xüsusiyyətlərin və prinsiplərin nəzərə alınmasıdır. Heydər Əliyevin kitabxana fondunun səmərəliliyinin, həcminin, oxucu sayının artırılması məqsədi ilə gördüyü bütün tədbirlər sayəsində oxucuların məqsədyönlü istifadəsi üçün sistemləşdirilmiş qaydada təşkil olunmuş sistem yaradılmışdır. Onun səyləri sayəsində kitabxanaların səmərəli fəaliyyətinin təmin olunması nəticəsində kitabxanaların bazası məqsədyönlü şəkildə təsnifləşdirilmiş kitabxana fondu yaradılmışdır.

**Резюме:** Для увеличения и повышения эффективности библиотечного фонда великого вождя большое значение имеет повышение читательского потенциала с точки зрения комплектации фонда и его эффективности. Одним из основных факторов, обеспечивающих долгосрочную эффективность библиотечных фондов Азербайджана, является учет многих особенностей и принципов в организации библиотечных фондов. Благодаря всем мерам, принятым Гейдаром Алиевым по повышению эффективности, объема и числа читателей библиотечного фонда, была создана система целевого использования читателей. Благодаря его усилиям вся база данных была целенаправленно классифицирована и создан библиотечный фонд, обеспечивающий эффективную работу библиотек.

**Summary:** In order to increase and improve the efficiency of the great leader's library fund, it is of great importance to increase the reading potential in terms of its completion and efficiency. One of the main factors ensuring the long-term efficiency of the library fund in Azerbaijan is the consideration of many features and principles in the organization of the library fund. Thanks to all the measures taken by Heydar Aliyev to increase the efficiency, volume, and number of readers of the library fund, a systematized system was created for the purposeful use of readers. Thanks to his efforts, as a result of ensuring the efficient operation of libraries, the entire base was purposefully classified and a library fund was created.

Azərbaycan xalqının milli sərvəti və mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan kitabxanaların təkmilləşdirilməsi və istifadə səmərəliliyinin təmin olunması Ümummilli lider Heydər Əliyevin həmişə diqqət mərkəzində olan mövzulardan biri olmuşdur. Kitabxanaların səmərəli fəaliyyətinin təmin olunması nəticəsində bütün baza məqsədyönlü şəkildə təsnifləşdirilərək kitabxana fondu yara-

dıldı. Təsnifat cədvəllərinin şöbələrinin və bölmələrinin sistemləşdirilməsi xüsusi prinsiplər əsasında həyata keçirildiyi üçün kitabxana fondunda ədəbiyyatın təsnifləşdirilməsi zamanı təsnifat cədvəllərinə uyğun olaraq ədəbiyyatlar kitab rəflərində yerləşdirildiyi üçün çox böyük asanlıqla əldə olunurdu. Ümummilli lider Heydər Əliyevin yürütdüyü siyasət nəticəsində kitabxana fondunun daha da səmərəli təşkil edilməsi özündə ictimai-siyasi tərbiyəni, hərbi-vətənpərvərliyi, uşaqların estetik tərbiyəsini, ölkəşünaslığı, əmək tərbiyəsini, əxlaq-hüquq tərbiyəsini sistemləşdirilməsində çox böyük əhəmiyyət kəsb edir. Kitabxana fondunun səmərəliliyini artırmaq və təkmilləşdirmək məqsədilə fondun komplektləşdirilməsi və səmərəliliyi baxımından mütaliə potensialını yüksəldilməsi üçün mühüm tədbirlər həyata keçirilmişdir. Azərbaycanda kitabxana fondunun uzun müddət istifadə səmərəliliyini təmin edən əsas amillərdən biri də kitabxana fondunun təşkilində bir çox xüsusiyyətlərin və prinsiplərin nəzərə alınmasıdır. Kitabxana fondunun öyrənilməsi və onun oxucular tərəfindən mühüm təhlili nəticəsində fondun daha məqsədəuyğun və sistemli şəkildə formalaşdırılmasına nail olunmuşdur. Kitabxana fondunun səmərəlilik fəaliyyətinin öyrənilməsi kitabxana şəbəkəsinin genişləndirilməsinə, onun maddi-texniki bazasının möhkəmlənməsinə, zənginləşdirilməsinə, beynəlxalq əlaqələr istiqamətində mühüm və məqsədli tədbirlər görülməsinə ən əsas səbəbdir.

Professor Kərim Tahirov "Azərbaycanda kitabxana işinin inkişafına Heydər Əliyev qayğısı" məqaləsində Heydər Əliyevin Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması məqsədilə həyata keçirdiyi tədbirləri geniş şəkildə analiz etmişdir. "Ulu öndərimizin Milli Kitabxanamıza xüsusi qayğısının bariz nümunələrindən biri 2000-ci ildə kitabxanamızın binasında əsaslı yenidənqurma işlərinin aparılması və texniki təchizatının gücləndirilməsi barədə verdiyi tapşırıq olmuşdur. 2000-ci ilin may ayında Nazirlər Kabinetində bu sətirlərin müəllifinin iştirakı ilə keçirilən müşavirədə Avropa Şurasının ayırdığı dövlət qrantı hesabına Ərazilərin Bərpası və Yenidən Qurulması Agentliyinin xətti ilə bərpa olunması nəzərdə tutulan 3 ən mühüm müəssisə seçilərək Ulu öndərə təqdim olunarkən, Ulu öndər "M.F.Axundov adına Dövlət Kitabxanasını götürün, Azərenerji və Bakı Şəhər İcra Hakimiyyəti özləri vəsait taparlar", dedi. Milli Kitabxanada oxucular üçün yaradılan bu gözəl şərait, kitabxanamızın saytının, elektron kataloqunun, elektron kitabxanasının yaradılması və onun virtual rejimdə bütün dünyaya yayılması məhz Ulu öndərin kitabxanaya qayğı və diqqətinin nəticəsi hesab oluna bilər" [5 s.8].

Heydər Əliyevin Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması məqsədi ilə həyata keçirdiyi tədbirlər kitabxana informasiya xidmətini daha da yaxşılaşdırdı və müasir kitabxana fondu yaratmaq istiqamətində mühüm işlər görüldü. Bu tədbirlərin yekunu olaraq kitabxanalarda avtomatlaşdırılmış kitabxana-informasiya texnologiyasının tədbiqinə başlanıldı və ölkə ərazisindəki kitabxanalara xeyli miqdarda kompüter, texniki vasitələr göndərildi. Kitabxanaların belə qısa müddət ərzində avtomatlaşdırılması və kompüterləşdirilməsi prosesində Heydər Əliyevin təlimatları çox mühüm rol oynamışdır. Kitabxanalarda kompüterləşmənin optimallığının təmin olunması ilə oxuculara xidmət sahəsində təsərrüfat vəzifəsindən, istehsalat prosesindən, profillik mövqeyindən və seçmə prinsiplərdən geniş şəkildə istifadə olunmağa nail olundu. Kitabxana fondunun kompüterləşdirmə prosesində kitabxana daxili imkanların avtomatlaşdırılması sahəsində həyata keçirilən bir çox tədbirlərdən əldə olunmuş nəticələrdən belə qənaətə gəlmək olar ki, müasir istifadəçilər, oxucular, xüsusilə də uşaqlar kitabxanadaxili resursların istifadəsində yeni-yeni nailiyyətlərin tədbiqini çox yüksək qiymətləndirirlər. Heydər Əliyevin Azərbaycanda kitabxanaların fəaliyyətinin dünya kitabxanaları səviyyəsinə çatdırılmasındakı xidmətləri sayəsində Azərbaycan gəncliyinin intellektual səviyyəsinin yüksəlməsində çox böyük nailiyyətlərə nail olunmuşdur.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsində 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı //Kitabxaşünaslıq və biblioqrafiya.- 2008.- № 2.- S.12

2. *Həsənov M*. Kitabxana fondunun yaranması, formalaşması və idarə edilməsi: Dərs vəsaiti.- B.: BDU, 2004.- 143 s.

3. *İsmayılov. X.İ*. Kitabxana menecmentinin əsasları: dərs vəsaiti.- B., 2005.-196 s.

4. *İsmayılov. X.İ*. Kitabxana-informasiya texnologiyaları: dərs vəsaiti.- B.: Nurlar, 2009.- 312 s.

5. *Tahirov K*. Azərbaycanda kitabxana işinin inkişafına Heydər Əliyev qayğısı //Xalq qəzeti.- 2010.- 7 may.- 8 s.